*Siyəzənin timsalında Azərbaycanda son illər ərzində gedən inkişafı görürük*
**İlham ƏLİYEV.**



# ÇIRAQ

**23 may** 2019-cu il № 3 (258) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə



Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə-1970-ci illərdə, 1980-cı illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı.

*****************************************************

Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq.:. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq... Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş «Bir kəmər, bir yol» Forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir.

*****************************************************

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 74 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## BÖYÜK HÖRMƏT VƏ EHTİRAMLA









Mayın 10-u Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü rayonumuzda izdihamlı, cəmiyyətin bütün sosial təbəqələrini əhatə edən kütləvilik şəraitində böyük hörmət və ehtiramla yad edilmişdir.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov, İcra Hakimiyyəti Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilat kollektivləri, ziyalılar, rayon ictimaiyyətinin nümayəndələri möhtəşəm abidənin önünə çiçək dəstələri düzmüş, böyük rəhbərə ehtiramlarını bildirmiş, xatirəsi hörmətlə anılmışdır.

Mərasim daha sonra Heydər Əliyev Mərkəzində davam etdirilmişdir. Burada Ulu Öndərin anadan olmasının 96 illiyinə həsr olunmuş «Xalq və dövlət üçün yaşanmış ömür» mövzusunda konfrans keçirilmişdir. Konfransın işində Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov, hüquq mühafizə orqanlarının rəhbərləri, ziyalılar, rayon ictimaiyyətinin fəalları iştirak etmişlər.

**"Çıraq"**

## XALQ VƏ DÖVLƏT ÜÇÜN YAŞANMIŞ ÖMÜR

10 may 2019-cu il tarixində Siyəzən şəhər Heydər Əliyev Mərkəzində «Xalq və dövlət üçün yaşanmış ömür» mövzusunda konfrans keçirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş konfransda iştirakçılar əvvəlcə Heydər Əliyev Mərkəzində Ulu Öndərin genişmiqyaslı həyat və yaradıcılığından bəhs edən kitablar və fotostendlərlə tanış olmuşlar. Tədbir daha sonra Mərkəzin konfrans zalında davam etdirilmişdir.



Konfransı giriş sözü ilə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Novruz Novruzov açmışdır. Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçiliyi tarixində oynadığı əhəmiyyətli rolu vurğulayan natiq qeyd etmişdir ki, Azərbaycan xalqının böyük oğlu, Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ili tamam olur. Bu münasibətlə sizin hər birinizi təbrik edir və Ulu Öndərin ideyalarının həyata keçməsinin ifadəsi olan Azərbaycanımızın daha da qüdrətlənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır. Bu gün ümummilli liderimizin ideyaları nəinki yaşayır, hətta daha geniş şəkildə həyata keçirilir. Böyük öndərimizin başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışını davam etdirən natiq daha sonra bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Bu yüksəliş isə Ulu Öndərin müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.

Konfransda məruzə ilə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov öz məruzəsində müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin ölkəmizin keçdiyi inkişaf yoluna nəzər salaraq möhtərəm Prezidentmiz İlham Əliyevin bu tezisini səsləndirib: «Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti daha da qüdrətli, zəngin olacaq, hərtərəfli inkişafa nail olacaqdır».

Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış və böyük strateqin bu statusunu tarix bütün mərhələlərdə qorumuşdur.

Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda Ulu Öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir. Bu baxımdan xalqımızın müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndər bu reallığı da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini onun iqtisadi azadlığı şərtləndirir. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir.

Məruzəçi daha sonra qeyd etdi ki, ümumilikdə 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində respublikada onlarla zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutmuş, respublikada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir. Bütövlükdə 14 il ərzində respublikada əvvəlki yarım əsrdəki qədər sənaye məhsulu istehsal olunmuş, sənaye istehsalı 2,7 dəfə artmış və 1969-cu ilə qədər aqrar respublika hesab olunan Azərbaycanın ümumi daxili məhsulunda sənayenin payı 66 faizə yüksəlmişdi.

1982-ci ilin dekabrında Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçilməsi onun müdrikliyinin ittifaq rəhbərliyi səviyyəsində etirafı olmuşdur.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıdan ümummilli lider Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. Ulu Öndər ictimai-siyasi sabitliyin bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur.

Konfransda çıxış edən «Çıraq» qəzetinin redaktoru İlyas İlyasov, 2 saylı tam orta məktəbin tarix müəllimi Səadət Əsədullayeva, Gilgilçay qəsəbə tam orta məktəbin direktoru Samir Baxşıyev ümummilli liderin Azərbaycan tarixində böyük rolu, keçirdiyi tarixi görüşləri, onun milli dövlətçilik ənənələrimizin formalaşmasında müstəsna xidmətləri barədə danışdılar.

Konfransı Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov yekunlaşdırdı. Sonda konfrans iştirakçıları üçün Ulu Öndərin şərəfli həyat və fəaliyyətindən bəhs edən «Dahi Lider» adlı film nümayiş olundu.

**Ramilə SEYİDOVA,**
**Heydər Əliyev Mərkəzinin direktoru.**

# RAYON XƏBƏRLƏRİ

## TAMAŞA MARAQLA QARŞILANMIŞDIR

Respublikanın əməkdar artisti Loğman Kərimovun baş rejissor olduğu Şuşa Dövlət Musiqili Dram Teatrı rayonumuzun qonağı olmuşdur. Teatrın kollektivi Siyəzənli tamaşaçılar qarşısında Enurə Abdullayevanın «Əsgər papağı» əsəri ilə çıxış etmişdir.

Rejissor Sərdar Gözəlovun quruluş verdiyi tamaşada Qarabağ müharibəsinin ağrı-acılarından, Şuşada baş verən hadisələrdən danışılır.

Kollektivin çıxışı tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

## VƏTƏNDAŞLARI QƏBUL ETMİŞDİR

Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Komitəsinin rəis müavini, general-mayor Yusif Mirzəyev rayonumuzda qəbul keçirmişdir. Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Siyəzən və Xızı rayonlarından olan vətəndaşların müraciətlərinə baxılmışdır.

## TİKİNTİ, ABADLIQ İŞLƏRİ HƏYATA KEÇİRİLİR

Şəhərimizin Heydər Əliyev küçəsindəki 17, 19 və 21 nömrəli ikimərtəbəli yaşayış binalarının ətrafı abadlaşdırılmış, ərazi müxtəlif tullantılardan təmizlənmişdir. Belə ki, burada salınacaq mini istirahət parkında tikinti işləri davam etməkdədir. Sahəsi 1170 kvadratmetr olan bu mini istirahət parkında yaradılacaq gözəl şərait, şübhəsiz ki, sakinlərin, xüsusilə balacaların sevincinə səbəb olacaqdır.

Siyəzən şəhərinin Babək Bayramov, Cabir Novruz, Fəyyaz Əzməmmədov, Ərzuman Cabbarov və Şamil Baxşıyev küçələrinə 45500 kvadratmetr qum-çınqıl qarışığı verilərək küçələr təmir olunmuşdur. Hazırda bu işlər davam etdirilir.

Görülmüş abadlıq işləri sırasında Mərkəzi Kitabxananın qarşısındakı fūsunkar gözəlliyi xüsusi qeyd etmək lazımdır. Qısa müddət ərzində burada yaradılmış səliqə-sahman həminin diqqətini cəlb edir, könlünü oxşayır. Yaşıllıqlara yetərincə qulluq göstərilmiş, xeyli rəngbərəng, gözoxşayan çiçəklər əkilmişdir. Ətrafa sərinlik gətirən fəvvarələr də öz işində. Qalır bircə bu gözəlliyi qorumaq və onu yaradanlara təşəkkür etmək.

## TİBBİ MÜAYİNƏDƏN KEÇMİŞLƏR

Ölkə Prezidentinin tapşırığına əsasən əhalinin pulsuz tibbi müayinədən keçməsi kampaniyası rayonumuzda da uğurla başa çatmışdır.

Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzindən sorğumuza cavab olaraq baş həkimin müavini İlqar Osmanov bildirdi ki, üç ay müddətində 13437 nəfər pulsuz tibbi müayinədən keçmişdir.

Tibbi müayinədən keçənlərdən 1311 nəfərdə ilkin xəstəliklər aşkar edilmişdir. 134 nəfər dispanser nəzarətinə götürülmüş, 112 nəfərsə stasionar müayinəyə cəlb olunmuşdur. 3312 nəfər əlavə müayinələrdən keçmişdir.

*********************************

Siyəzən Rayon Mərkəzi Poliklinikanın baş həkimi Əhməd Quliyev söhbət əsnasında qeyd etdi ki, ölkəmizin hər yerində olduğu kimi, adıçəkilən səhiyyə ocağında da bu kompaniya yüksək səviyyədə başa çatmışdır. Belə ki, 14950 nəfər tibbi müayinədən keçmişdir.

## YERLİ YAZARLARLA GÖRÜŞ

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov Heydər Əliyev Mərkəzində yerli yazarlarla görüş keçirmişdir. Görüş iştirakçılarını səmimiyyətlə salamlayan cənab başçı rayondakı ədəbi mühitlə yaxından tanış olmuş, istedadlı yazarların üzə çıxarılması, dövrü mətbuatda dərc edilməsi üçün lazımi şəraitin yaradılacağını bildirmişdir. (Görüş haqqında geniş məlumatı qəzetimizin gələn sayında oxuyacaqsınız.)

## MÜSABİQƏ KEÇİRİLMİŞDİR

Rayon tam orta məktəblərinin VIII-XI sinif şagirdləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycan gəncliyi» mövzusunda inşa-yazı müsabiqəsinin qaliblələri məlum olmuşdur.

Siyəzən Rayon İcra Hakimiyyəti, Gənclər və İdman idarəsi və Təhsil şöbəsi tərəfindən birgə elan olunan müsabiqədə rayon tam orta məktəblərinin 50 şagirdi iştirak edib.

I və II yeri tutmuş şagirdlərin inşa-yazıları oxunduqdan sonra isə müsabiqə qaliblərinin adları elan olunaraq fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilmişlər. Şəhər 3 saylı tam orta məktəbin şagirdi Nəcəfova Azərin I, 2 saylı tam orta məktəbin şagirdi Hüseynli Ayçin II, 1 və 3 saylı tam orta məktəblərin şagirdləri Eldarova Sevinc və Mikayılova Rəhimə III yerə layiq görülmüşlər.

## "QADIN HÜQUQLARININ MÜDAFİƏSİ" ADLI MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİLMİŞDİR

Heydər Əliyev Mərkəzində Siyəzən Rayon İcra Hakimiyyəti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Qadın hüquqlarının müdafiəsi" adlı maarifləndirici tədbir keçirilmişdir. Tədbirdə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Elgün Səfərov, Siyəzən rayonunun idarə, müəssisə və təşkilatlarının qadın nümayəndələri iştirak edirdi.

**R. MURADOVA.**

# HEYDƏR ƏLİYEV FENOMENİ VƏ SİYƏZƏN

Hər il xalqımız may ayının 10-nu Azərbaycanlı olması ilə fəxr edən böyük şəxsiyyətin, dahi insanın doğum gününü bayram kimi qeyd edir. Hamı öz imkanı daxilində ümummilli liderə olan məhəbbət, ehtiram və hörmətini ifadə etməyə çalışır.

Böyük iftixar və qürur hissi ilə qeyd etməyi özümə borc bilirəm ki, mən də XX əsrin 70-ci illərin on minlərlə gənclərindən biri kimi Heydər Əliyev məktəbindən çıxmış, onun dühasından bəhrələnmiş, tərbiyə almış, həyatda öz yerimi tapmışam.

Bu yazımda Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışarkən Ulu Öndərin həyatının Siyəzənlə bağlı iştirakçısı olduğum bəzi məqamları xatırlatmaq istərdim.

Yaxşı xatırlayıram… 1982-ci ildə ölkə rəhbəri kimi Heydər Əliyev ilk dəfə Dəvəçiyə (indiki Şabrana) gəlmişdi. Həmin dövrdə Dəvəçi və Siyəzən bir rayon idi. Dəvəçi broyler fabrikinin kollektivi ilə görüşə gələn Heydər Əliyev rayon ictimaiyyəti ilə görüşdü. Dəvəçi bəlkə də ilk dəfə idi ki, bu səviyyədə mötəbər qonaq qarşılayırdı. Raykomun şöbə müdiri kimi hadisələrin içində olduğum üçün hər şeyi yaxşı xatırlayıram. Məsuliyyət və həyəcandan, gərginlikdən keçirilən tədbirə məsul olan şəxslərdən biri kimi özümüzə yer tapa bilmirdik.

Respublikanın rəhbəri kimi onun proqram xarakterli çıxış və tövsiyyələri ilə gündəlik işimizi qurmağımıza baxmayaraq ilk dəfə idi ki, biz onu yaxından görür, canlı dinləyirdik. 40 dərəcəyə yaxın istidə, kondensioneri olmayan kinoteatrda iki saatdan artıq çəkən məruzəsi ilə bu dahi insan bizi elə ovsunlamışdı ki, özümüzdə hər şeyə qadir olan bir qüvvənin olduğunu duyurduq.

1983-cü ildə artıq Heydər Əliyev nəhəng Sovetlər İttifaqının rəhbərlərindən biri kimi Dəvəçi rayonuna gəlmişdi. Tapşırığa əsasən mənim də daxl olduğum bir neçə məsul işçi Siyəzən şəhərində Heydər Əliyevin qarşılanıb yola salınması işinin təşkilinə cavabdehlik daşıyırdıq. O vaxtdan 35 ildən artıq vaxt keçməsinə baxmayaraq həmin tədbirin bütün detallarını xatırlayıram. Bütün Siyəzən ayaqüstə idi. Mədəniyyət Sarayının qarşısı, ətrafı insanla dolmuşdu. Saat 11 radələrində 2 hökumət maşını Sarayın qarşısında dayandı. Birinci maşında Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi K. Bağırovla, ikinci maşında isə onların ailə üzvləri, o cümlədən hazırkı ölkə Prezidenti gənc İlham Əliyev əyləşmişdi. Ailə üzvləri ilə birlikdə maşından düşən bu əfsanəvi şəxsiyyət əhali ilə çox səmimi, mehriban görüşdü. Bu görüş çox təbii alındı. Mən bu görüşdə xalqın, sadə insanların, hər şeyi öz adı ilə çağırmağı xoşlayan 70-ci illərin əli qabarlı neftçilərinin gözlərindəki sevinc yaşlarını xatırlatmaq istəyirəm. Xalqın öz dahi oğlu ilə görüşmək üçün necə böyük sevgi və coşqu ilə səy göstərdiyi o anlar ömürlük mənim yaddaşıma həkk olunub… Ali Sovetin deputatı gənc neftçi Heydər Əliyevə gül dəstəsi təqdim etməliydi. Bir anlıq həyəcandan gənc neftçi özünü itirdi, lazımı vaxtda gül dəstəsini təqdim etmədi. Ani yaranmış gərginlik zamanı qocaman neftçi, Böyük Vətən Müharibəsinin iştirakçısı Mayıl kişi irəli çıxaraq «Panfilovçu Bədəlov» deyərək əlini Heydər Əliyevə uzatdı. Həmin dövrdə nəzərdə tutulmuş proqramı pozmaq yaxşı hal sayılmırdı. Lakin böyük insani keyfiyyətlərə malik Heydər Əliyev sadə hərəkəti ilə gərginliyi aradan qaldırdı. Müharibə iştirakçısı ilə çox isti, səmimi görüşdü, söhbət etdi.

Bəlkə də bəziləri, xüsusən də gənc nəsil bilmir ki, bu gün 1000 nəfərdən artıq işçisi olan Siyəzən Broyler quşçuluq fabriki Ulu Öndərin siyəzənlilərə töhfəsi olmuşdur. Keçmiş ittifaqda ən böyük fabrik olan Siyəzən Broyler quşçuluq fabrikinin inşası ilə bağlı maraqlı məqamı xatırlamaq istərdim. O vaxt mən RİK-nin katibi işləyirdim. Fabrikin tikintisi ilə bağlı torpaqayırma sənədlərini almaq üçün Layihə institutunun əməkdaşları İcraiyyə Komitəsinə gəlmişdilər. Söhbət əsnasında onların rəhbəri dedi ki, fabrikin harada tikilməsi ilə bağlı müxtəlif söhbətlər gedir. Bu nəhəng müəssisənin qubalılar Qubada, naxçıvanlılar isə Naxçıvanda tikilməsinə çalışırlar. Fabrikin vəzifəsi əsasən Bakı şəhərini quş əti ilə təmin etmək idi. Bu mənada Siyəzənin infrastrukturu ən əlverişli idi. Dövlət əhəmiyyətli məsələlərdə güzəştə getməyən, obyektiv qərar çıxarmağı sevən Heydər Əliyev fabrikin Siyəzəndə inşasına göstəriş verdi. Bu fabrik həmin dövrdə bütün şimal bölgəsində əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynadı.

Böyük inamla demək olar ki, Heydər Əliyev epoxası, Heydər Əliyev fenomeni bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin simasında özünün kamillik dövrünü yaşayır. Biz inanırıq ki, uğurlu fəaliyyəti ilə hər bir azərbaycanlının prezidentinə çevrilmiş, müasir dünyanın siyasi elitasına böyük uğurla daxil olan ölkə Prezidenti, cənab İlham Əliyev düşünülmüş, uzaqgörən, davamlı siyasəti ilə Azərbaycanın ən ağrılı problemi olan Qarabağ məsələsini də xalqın maraqları baxımından həll etməyə nail olacaqdır.

Son Prezident seçkiləri göstərdi ki, bütün Azərbaycan xalqı kimi biz siyəzənlilər də İlham Əliyevə inanır, onun simasında Böyük Heydər Əliyevin layiqli varisini görür və deyirik: Heydər Əliyevin şah əsəri olan Müstəqil Azərbaycan etibarlı əllərdədir.

**Rafiq YARIYEV.**

# İDMAN XƏBƏRLƏRİ



Gənclər mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə şahmat üzrə yeniyetmə oğlanlar və qızlar arasında rayon birinciliyi keçirilmişdir.

40-a yaxın yeniyetmə şahmatçı iştirak etdiyi ikigünlük birincilikdə final oyunlarının yekun nəticəsinə əsasən, oğlanlar arasında şəhər 6 saylı məktəb-liseyin şagirdi Allahverdiyev Cahid I, 2 saylı tam orta məktəbin şagirdi Paşazadə Məhəmməd II, 6 saylı məktəb-liseyin şagirdi Allahverdiyev Amid III yeri, qızlar arasında isə 1 saylı tam orta məktəbin şagirdləri Ağayeva Nuray I, Dadaşova Könül II, 6 saylı məktəb-liseyin şagirdi Qurbanlı Məryəm III yeri tutub.

Qaliblər Gənclər və İdman idarəsi tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunublar.

*****************************

Rusiya Federasiyasının Xabarovsk şəhərində Sovet İttifaqı Qəhrəmanı Konstantin Korotkovun xatirəsinə həsr olunmuş Boks üzrə Beynəlxalq turnir keçirilmişdir. 19 ölkədən 150 əlcək ustasının qatıldığı yarışda Siyəzən Boks məktəbinin yetirməsi Balayev Əflatun (məşqçi Elman Abdullayev) 57 kq çəki dərəcəsində bürünc medal qazanmışdır.

*****************************

Bakı şəhərində «İBSA Qran-Pri Bakı 2019» Beynəlxalq turniri keçirilmişdir. 36 ölkədən 214 cüdoçunun qatıldığı Paracüdo üzrə Qran-Pri yarışında Siyəzən cüdoçusu Səfərova Bəsti (məşqçi Yavuz Əliyev) 52 kq çəki dərəcəsində bürünc medal qazanmışdır.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman idarəsinin rəisi.**

# OXU BAYRAMI




May ayının 15-də Xaçmaz RMİ-nin Siyəzən rayonu üzrə nümayəndəliyinin Mərkəzi Kitabxanasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş «Oxu bayramı» adlı tədbir keçirilmişdir. Tədbirin keçirilməsində əsas məqsəd kitabın təbliği, kitabxanaya, kitaba oxucu maraqlarının artırılması idi.

Xaçmaz RMİ-nin təşəbbüsü ilə hazırlanmış bu layihə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən bəyənilmiş və respublikanın bütün şəhər və rayonlarında keçirilməsi nəzərdə tutulmuşdur.

İlk olaraq Siyəzən rayonunda həyata keçirilən tədbir iki mərhələdən ibarət olduğu üçün mayın 7-si tarixində ilk seçim mərhələsi keçirilmiş və münsiflər heyəti tərəfindən rayonun ən fəal, aktiv oxucuları seçilmişdir. Tədbirdə kitab sərgiləri ilə yanaşı, Siyəzən UİM-nin gənc rəssamlarının əsərləri, təlbiqi və dekorativ sənət ustalarının əl işləri də sərgilənmiş və tamaşaçıların böyük rəğbətini qazanmışdır.

Tədbirdə rayon İcra Hakimiyyətinin məsul işçiləri, ümumtəhsil məktəblərinin müəllim və şagirdləri, idarə və müəssisələrdən nümayəndələr və şəhər ictimaiyyəti iştirak edirdi. Tədbirdə çıxış edən Xaçmaz RMİ-nin rəisi N. Ağayev tədbir iştirakçılarını və qonaqları salamlayaraq bu günkü gün münasibətilə hamını təbrik etdi və tədbirin mahiyyəti haqda geniş məlumat verdi.

Sonda rayon İHB-nın müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri T. Bəxtiyarovanın iştirakı ilə qalib gəlmiş oxucular mükafatlandırıldı. Oxuculardan Siyəzən rayon sakini Səriyyə Nurməmmədova I yerə, Sədan kənd sakini, şəhid atası Adil Eldarov və şəhər sakini Əbülfərz Dadaşov II yerə, Xalidə Tağıyeva və Həsənxan Hüseynov isə III yerə layiq görülərək müxtəlif məbləğdə pul ilə mükafatlandırıldılar.

Tədbir rayonun incəsənət ustalarının çıxışları ilə davam etdirildi.

**Zəminə QƏDİRLİ,**
**Xaçmaz RMİ-nin**
**Siyəzən rayonu üzrə nümayəndəsi.**

